Təsdiq edirəm
ADMİU-nun rektoru
________Professor Ceyran Mahmudova
“12” “Sentyabr” 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003017 – Sənətşünaslıq ixtisasının**
**Mədəniyyətin tarixi və nəzəriyyəsi ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003017 – Sənətşünslıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı" na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- sənətşünaslıq sahəsində nəzəri və tənqidi metodları bilmək, elmi problemi formalaşdırmaq, hipotez irəli sürmək və tədqiqat metodlarının nəticələrini əsaslandırmaq;
- yüksək ixtisaslı sənətşünas funksiyalarını həyata keçirmək;
- sahəsi üzrə müxtəlif KİV-də redaktor və ekspert kimi elmi-publisistik məqalələri yazmaq və şərh etmək;
- sənətşünaslığa dair əsərlər haqqında tənqidi məqalələr yazmaq və dərc etdirmək;
- sənətşünaslığın təbliği üçün maarifləndirmə işi aparmaq;
- konfrans, seminar, simpozium və mədəni tədbirləri təşkil və idarə etmək;
- sahə üzrə terminologiyadan düzgün istifadə etmək;
- sahə üzrə proseslərin sənədləşdirmə işlərini apara bilmək.

**2.2.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

- fəlsəfi nəzəriyyələr əsasında mədəniyyət fenomenlərinin ontoloji, epistemoloji və etik əsaslarını dərk etmək;
- fərqli fəlsəfi paradiqmalar əsasında mədəniyyət fenomenlərini təhlil və interpretasiya etmək;
- tarixi və müasir mədəni prosesləri müasir paradiqmalar çərçivəsində təhlil və şərh etmək;
- Azərbaycanın neokolonizmə qarşı apardığı siyasəti mədəniyyət paradiqmasında dərk və təhlil etməyi bacarmaq;
- mədəniyyətin estetik və semiotik aspektlərini media, sənət və vizual sahələrdə araşdırmaq;
- mədəniyyətin estetik və semiotik aspektlərinin cəmiyyət və kimliyə təsirini dəyərləndirməyi bacarmaq;
- mədəniyyət fəlsəfəsinin fundamental məktəb və nəzəriyyələrini bilmək, pedaqoji və elmi-tədqiqat fəaliyyətində istifadə etmək;
- mədəniyyətin müxtəlif sahələrinə fənlərarası yanaşmaları tətbiq edərək təhlillər aparmaq;
- qloballaşma və lokalizasiya şəraitində identiklik, mədəni müxtəliflik və sosial inteqrasiya məsələlərini təhlil etmək;
- Azərbaycan mədəniyyətinin lokal və qlobal təsirlər fonunda inkişafını, milli identiklik və dəyərlərin qorunması ilə bağlı konsepsiyaları bilmək;
- rəqəmsal texnologiyaların mədəniyyətə təsirini bilmək;

- rəqəmsallaşdırma və süni intellekt dövründə mədəniyyət nümunələrinin istehsalı, yayılması və istehlakı proseslərini təhlil etməyi bacarmaq;
- rəqəmsal arxiv, virtual muzey, NFT və yeni media sənətlərini mədəniyyət fenomenləri kontekstində təhlil etmək;
- mədəniyyət sahəsində aparılan beynəlxalq və yerli siyasət, strategiyalar haqqında biliklərini fəaliyyətində tətbiq etmək;
- mədəni irs obyektlərinin qorunması, rəqəmsallaşdırılması və çağdaş dövrə uyğunlaşdırılması üzrə yanaşmaları bilmək və bu obyektlərin yenidən kontekstual interpretasiyasını aparmaq;
- mədəni irsin qorunmasına dair beynəlxalq konvensiyaları və Azərbaycan qanunvericiliyini bilmək və fəaliyyətində tətbiq etmək.

## 3. Təhsil proqramının strukturu

**3.1.** Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Mədəniyyətin tarixi və nəzəriyyəsi | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

**3.2.** Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |

| | | |
|---|---|---|
| 3 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 48 |
| 4 | **Mədəniyyət tarixi və fəlsəfəsi**<br>*Bu fənnin əsas məqsədi mədəniyyət anlayışının tarixi inkişafını və fəlsəfi mahiyyətini öyrətmək, müxtəlif dövrlərdə mədəniyyət nəzəriyyələrinin yaranma səbəblərini, onların ictimai-siyasi və fəlsəfi kontekstini təhlil etməkdir. Fənn tələbələrdə mədəniyyət fenomeninə dair dərin elmi baxış formalaşdırır, mədəniyyətin tarixi transformasiyalarını və müasir fəlsəfi diskurslardakı əksini anlamağa imkan yaradır.* | 6 |
| 5 | **Mədəni irs və beynəlxalq hüquq**<br>*Bu fənn mədəni irsin qorunması, idarə olunması və beynəlxalq hüquqi prinsiplər çərçivəsində tənzimlənməsi məsələlərini əhatə edir. Fənnin məqsədi tələbələrə mədəni irsin beynəlxalq hüquq normaları, konvensiyalar və müqavilələr əsasında qorunması, həmçinin mədəniyyətlərarası əməkdaşlıq və mədəni müxtəlifliyin təşviqi sahəsində bilik və bacarıqlar qazandırmaqdır.* | 6 |
| 6 | **Mədəniyyətin semiotikası**<br>*Bu fənn mədəniyyətin semiotik strukturlarını və proseslərini öyrədir. Tələbələr mədəniyyətin simvolik ifadələrini (dil, rituallar, sənət, memarlıq, geyim və s.) təhlil edərək onların cəmiyyətin dəyərləri, ideologiyaları və sosial normaları ilə necə əlaqələndiyini öyrənirlər. Fənn həm klassik semiotika nəzəriyyələrini (Saussure, Peirce) həm də müasir yanaşmaları əhatə edir.* | 6 |
| 7 | **Mədəniyyətin morfologiyası**<br>*Mədəniyyətin morfologiyası və dinamikası sahəsi tələbələrə mədəniyyətin strukturunu, elementlərini və zaman içində transformasiyasını öyrənmə imkanı verir. Fənnin məqsədi tələbələrdə mədəniyyətin müxtəlif səviyyələrini analiz etmək və onun inkişaf proseslərini anlama bacarığını formalaşdırmaqdır.* | 6 |

| | | |
|---|---|---|
| 8 | **Rəqəmsal mədəniyyət və yeni media**<br>*Bu fənninin əsas məqsədi magistrantlara rəqəmsallaşmanın cəmiyyətə, mədəniyyətə və incəsənətə təsirini dərindən öyrətmək, rəqəmsal texnologiyaların yaratdığı yeni mədəni formaları təhlil etmək, həmçinin rəqəmsal mühitdə mədəni irsin qorunması, istehsalı və yayılması ilə bağlı nəzəri və praktiki biliklər qazandırmaqdır.* | 6 |
| 9 | **Azərbaycan mədəniyyətinin aktual problemləri**<br>*Bu fənn Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində mövcud olan problemləri təhlil edir. Tələbələr mədəniyyətin qorunması, milli irsin mühafizəsi, mədəni siyasət və idarəetmə, eləcə də mədəniyyətin kommersiyalaşdırılması və beynəlxalq inteqrasiya kimi mövzuları öyrənirlər. Fənn eyni zamanda müasir texnologiyalar və qloballaşma şəraitində mədəni dəyərlərin qorunması məsələlərinə də diqqət yetirir.* | 6 |
| 10 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| 11 | **Mədəniyyətin interdisiplinar öyrənilməsi**<br>*Bu fənn mədəniyyəti yalnız kulturologiya prizmasından deyil, eyni zamanda fəlsəfə, tarix, sosiologiya, psixologiya, antropologiya, dilçilik, iqtisadiyyat, hüquq və informasiya texnologiyaları kimi müxtəlif elm sahələrinin yanaşmaları əsasında araşdırılmasını nəzərdə tutur. Bu fənn mədəniyyətin kompleks, çoxşaxəli və dinamik təbiətini anlamağa kömək edir, tələbələrə mədəniyyət fenomenlərini müxtəlif elmi metodlarla təhlil etmək bacarığı qazandırır. Fənn həmçinin qloballaşma, rəqəmsallaşma, identiklik, multikulturalizm, sosial inteqrasiya kimi müasir mədəni proseslərin interdisiplinar kontekstdə izahını əhatə edir* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 24 |
| 12 | **a) Qloballaşma və mədəni transformasiyalar**<br>*Bu fənn qloballaşma proseslərinin müasir dünyada mədəniyyətə təsirini, mədəni transformasiyaların nəzəri əsaslarını və praktik nəticələrini öyrənməyə həsr olunmuşdur. Magistrantlar mədəniyyətlərin qarşılıqlı təsir mexanizmlərini, qlobal mədəni axınları, lokal identikliklərin qorunması problemlərini və transmillilləşmə proseslərini təhlil edirlər.*<br>**b) Şərq-qərb mədəniyyətinin nəzəri əsasları**<br>*Bu fənn tələbələrə Şərq və Qərb mədəniyyətlərinin mahiyyətini, onların tarixi inkişaf proseslərini və qarşılıqlı təsir mexanizmlərini öyrədir. Fənn* | 6 |

| | | |
|---|---|---|
| | *çərçivəsində magistrlər müxtəlif mədəniyyət modellərinin fəlsəfi, estetik və sosial əsaslarını biləcək, onların oxşar və fərqli tərəflərini dərin elmi yanaşmalar əsasında təhlil etməyi bacaracaq. Mədəniyyətlərarası dialoqun, qloballaşma proseslərinin və identiklik problemlərinin mahiyyətini qiymətləndirəcək, həmçinin müasir dövrdə Şərq və Qərb mədəniyyətlərinin inteqrasiyası və ziddiyyətləri ilə bağlı yaranan nəzəri yanaşmaları araşdırmaq üçün zəruri səriştələri mənimsəyəcəkdir.* | |
| 13 | **a) Müxtəlif mədəni sistemlərdə gender problemi**<br>*Bu fənn çərçivəsində tələbələr müxtəlif mədəni sistemlərdə gender probleminin nəzəri əsaslarını, qadın və kişi rollarının tarixi-mədəni kontekstdə formalaşmasını və inkişaf dinamikasını öyrənəcəklər. Onlar genderin sosial, fəlsəfi və mədəni aspektlərini biləcək, müxtəlif mədəniyyətlərdəki gender münasibətlərini müqayisəli təhlil etməyi bacaracaq, gender bərabərliyi və bərabərsizlik problemlərini elmi yanaşmalar əsasında qiymətləndirəcək və müasir dövrdə gender məsələlərinin həllinə yönəlik analitik düşüncə, tənqidi yanaşma və tətbiqi bacarıqları əhatə edən səriştələri mənimsəyəcəklər. Fənn həm nəzəri biliklərin, həm də praktik yanaşmaların inteqrasiyasını təmin edərək tələbələrin elmi-tədqiqat, sosial və pedaqoji fəaliyyətlərini formalaşdırır.*<br>**b) Ünsiyyət mədəniyyəti**<br>*Ünsiyyət mədəniyyəti fənni tələbələrə insan münasibətlərinin sosial-psixoloji və mədəni əsaslarını öyrətməklə onların nitq mədəniyyətini, etik davranış qaydalarını və dialoq qurma bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Bu fənni mənimsəyənlər ünsiyyət prosesində mədəni və sosial faktorların rolunu biləcək, müxtəlif situasiyalarda səmərəli ünsiyyət qurmağı bacaracaq, ünsiyyət zamanı yaranan konfliktləri və anlaşılmazlıqları obyektiv şəkildə qiymətləndirəcək, həmçinin şəxsi, sosial və peşəkar mühitdə düzgün dialoq yaratmaq üçün zəruri səriştələri mənimsəyəcəklər. Tədris prosesi tələbələrdə qarşılıqlı anlaşma, əməkdaşlıq və mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşmasına şərait yaradacaq.* | 6 |
| 14 | **a) Türk xalqlarının mədəniyyət tarixi**<br>*Bu fənn tələbələrə qədimdən müasir dövrə qədər türk xalqlarının mədəni inkişaf mərhələlərini, tarixi-mədəni irsini, mədəniyyətin formalaşmasında sosial, siyasi, dini və estetik amillərin rolunu öyrədir. Bu fənni mənimsəyən magistrlər türk xalqlarının mədəniyyət tarixinin əsas nəzəri biliklərini biləcək, müxtəlif dövrlərə aid mədəniyyət nümunələrini və onların cəmiyyət həyatındakı funksiyalarını təhlil etməyi bacaracaq, türk mədəniyyətinin dünya sivilizasiyasındakı yerini və təsirini qiymətləndirəcək, həmçinin milli və ümumbəşəri dəyərlərin qorunması və təbliği üçün zəruri səriştələri mənimsəyəcəklər. Fənn tələbələrdə tarixi yaddaşın gücləndirilməsinə, milli kimlik və mədəni identiklik anlayışlarının* | 6 |

| | | |
|---|---|---|
| | *daha dərindən dərk edilməsinə, eləcə də mədəniyyətlərarası müqayisəli yanaşma bacarığının formalaşmasına xidmət edir.* | |
| | **b) Mədəniyyətin tarixi tipologiyası**<br>*Mədəniyyətin tarixi tipologiyası fənni müxtəlif dövrlərdə formalaşmış mədəniyyət modellərinin nəzəri əsaslarını və onların inkişaf mərhələlərini öyrənməyə yönəlmişdir. Bu fənni mənimsəyən tələbələr mədəniyyətin tarixi tipologiyalarını və onların xarakterik xüsusiyyətlərini biləcək, müxtəlif sivilizasiyaların mədəniyyətini müqayisəli şəkildə təhlil etməyi bacaracaq, mədəniyyətin sosial, fəlsəfi və estetik funksiyalarını elmi yanaşmalar əsasında qiymətləndirəcək və müasir dövrdə mədəniyyətlərin qarşılıqlı təsirini dərk etmək üçün zəruri səriştələri mənimsəyəcəklər. Fənn tələbələrdə mədəniyyətin ümumbəşəri inkişaf qanunauyğunluqlarını anlamaq, müxtəlif mədəniyyət tiplərinin müasir dövrdəki əhəmiyyətini müəyyənləşdirmək və onları elmi baxımdan təhlil etmək bacarığını formalaşdırır.* | |
| 15 | **a) Mədəniyyətin komparativ öyrənilməsi**<br>*Bu fənn çərçivəsində tələbələr mədəniyyətlərin müqayisəli öyrənilməsinin nəzəri və metodoloji əsaslarını, müxtəlif sivilizasiya və mədəniyyətlərin qarşılıqlı təsirini, onların oxşar və fərqli cəhətlərini dərindən araşdıracaqlar. Tələbələr mədəniyyətin komparativ təhlil prinsiplərini biləcək, müxtəlif mədəniyyət nümunələrini müqayisə etməyi və onların spesifik xüsusiyyətlərini müəyyənləşdirməyi bacaracaq, qlobal mədəni prosesləri və mədəniyyətlərarası münasibətləri elmi yanaşmalar əsasında qiymətləndirəcək, həmçinin müasir dövrdə mədəniyyətlərarası dialoqun və inteqrasiyanın mahiyyətini dərk etmək üçün zəruri səriştələri mənimsəyəcəklər. Fənn tələbələrdə analitik və tənqidi təfəkkürün inkişafına, mədəniyyətlərin müqayisəli öyrənilməsinə dair geniş dünyagörüşün formalaşmasına xidmət edir.*<br>**b) Din mədəniyyəti**<br>*Bu fənnin məqsədi tələbələrə din mədəniyyətinin nəzəri əsaslarını, müxtəlif dini ənənələrin tarixi və sosial inkişafını öyrətmək, onların cəmiyyət həyatındakı rolunu və mədəniyyətlərarası təsirlərini dərk etməyi təmin etməkdir. Tələbələr din mədəniyyətinin strukturunu və funksiyalarını biləcək, fərqli dini təcrübələri müqayisəli şəkildə təhlil etməyi bacaracaq, dini təsirlər və mədəni dəyərlərin formalaşması prosesini elmi yanaşmalar əsasında qiymətləndirəcək və müasir dövrdə din və mədəniyyət münasibətlərini anlamaq üçün zəruri səriştələri mənimsəyəcəklər. Fənn həmçinin tələbələrdə dini və mədəni dəyərlərin anlaşılması, mədəniyyətlərarası dialoq və tənqidi düşüncə bacarıqlarının formalaşmasına imkan yaradır.* | 6 |

| | | |
|---|---|---|
| Təcrübə | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 6 |
| Dissertasiya işi | | |
| ... | **Magistrlik dissertasiyası** | 18 |
| CƏMİ | | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

**4.1.** Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

**4.2.** İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

**4.3.** İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

**4.4.** Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

**Mədəniyyətin tarixi və nəzəriyyəsi** ixtisaslaşması üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

- Mədəni irsə, arxeologiyaya, etnoqrafiyaya və incəsənət tarixinin müxtəlif dövrlərinə dair rəqəmsal və çap formatında elmi mənbələr, o cümlədən kataloqlar, monoqrafiyalar, arxiv sənədləri və muzey fondlarının rəqəmsal kolleksiyalarına çıxış imkanları;
- Arxiv materialları, mənbəşünaslıq resursları və mədəniyyət tarixinin tədqiqi üçün müvafiq elektron bazalar və onlayn arxiv platformaları;
- Mədəniyyət fenomenlərinin analizi, elmi tədqiqat, mətn təhlili və qarşılaşdırma üçün nəzərdə tutulmuş seminar otaqları və multimedia ilə təchiz edilmiş auditoriyalar.

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1.** Sənətşünaslıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis dövlət qurumları, Mədəniyyət Nazirliyi, Turizm Agentliyi və yerli icra hakimiyyətlərinin mədəniyyət şöbələri; təhsil proqramları və dərsliklərin hazırlanmasında ekspert; ölkə xaricində fəaliyyət göstərən qurumlar və diplomatik korpuslarda mədəniyyət sahəsi üzrə məsul şəxs; ATM-lərin bakalavriat səviyyəsində, incəsənət yönümlü orta ixtisas, tam orta təhsil müəssisələrində pedaqoq; kütləvi informasiya mərkəzlərində jurnalist, redaktor, ekspert; Mədəniyyət tədbirləri, festivallar və simpoziumların təşkilatçısı; kino, teatr və incəsənət tənqidçisi; mədəni sahədə festivallarda sahəsi üzrə ekspert, jüri, koordinator; sahəsi üzrə müxtəlif KİV-lərdə redaktor və ekspert; sahəsi üzrə AMEA və digər elmi-tədqiqat institutlarında elmi işçi; UNESCO, ICOM, ISESCO kimi təşkilatlarda, QHT-lərdə mədəni irs, mədəni irsin qorunması, maarifləndirmə üzrə ekspert; mədəni layihələr və tədbirlərin təşkilatçılığı sahəsində işləyə bilər.

Mədəniyyətin tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə magistratura təhsili almış mütəxəssis mədəniyyət müəssisələri, muzeylər, sərgi salonları, mədəniyyət mərkəzləri, tarix-mədəniyyət qoruqları; sosioloji tədqiqat mərkəzlərində işləyə bilər.

**6.2.** Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

**6.3.** Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

**6.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

***Mədəniyyətin tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Sənətşünaslıq (mədəniyyətin tarixi və nəzəriyyəsi) sahəsində nəzəri və tənqidi biləcək, elmi problemin formalaşdırılması, hipotezin irəli sürülməsi və tədqiqat metodlarının nəticələrini əsaslandırmağı baçaracaq. Mədəniyyət fenomenlərinin ontoloji, epistemoloji və etik əsaslarını dərk edəcək, fərqli fəlsəfi paradiqmalar əsasında mədəniyyət fenomenlərini təhlil və interpretasiya üsullarını biləcək. |
| PTN 2. Tarixi və müasir mədəni prosesləri (o cümlədən, postkolonializm, posthumanizm, postqlobalizm, ekokrtisizm və s.) tənqidi təhlil etməyi bacaracaq. Azərbaycanın neokolonizmə qarşı apardığı siyasəti mədəniyyət paradiqmasında dərk edib, təhlil etməyi bacaracaq. Antik dövrdən postmodern dövrə qədər mədəniyyətin tarixi transformasiyalarını tədqiq etməyi bacaracaq. |
| PTN 3. Mədəniyyət fəlsəfəsinin fundamental məktəb və nəzəriyyələrini biləcək. Sahə üzrə terminologiyadan doğru istifadə etməyi bacaracaq. Media, sənət, performans, vizual və s. sahələrdə mədəniyyətin estetik və semiotik aspektlərini araşdırmağı, bu aspektlərin cəmiyyətə və kimliyə təsirini dəyərləndirməyi bacaracaq. Mədəniyyətinin müxtəlif sahələrində fənlərarası (tarix, sosiologiya, antropologiya, psixoanaliz, ədəbiyyat, estetika, media tədqiqatları və s. sahələri üzrə) yanaşmalarını birləşdirərək təhlillər aparmağı bacaracaq. |
| PTN 4. Qloballaşma və lokalizasiya şəraitində identiklik, mədəni müxtəliflik və sosial inteqrasiya məsələlərini təhlil etməyi bacaracaq. Azərbaycan mədəniyyətinin lokal və qlobal təsirlər fonunda inkişaf dinamikasını, milli dəyərlərin və identikliyin qorunması və inkişaf etdirilməsi ilə bağlı müxtəlif konsepsiyaları biləcək. |
| PTN 5. Rəqəmsal texnologiyaların mədəniyyətə təsirini biləcək. Rəqəmsallaşma və süni intellekt dövründə mədəniyyət nümunələrinin istehsalı, yayılması və istehlakı proseslərini təhlil etməyi bacaracaq. Rəqəmsal arxiv, virtual muzey, NFT və yeni media sənətlərini mədəniyyət fenomenləri kontekstində təhlil etməyi bacaracaq. |
| PTN 6. Mədəniyyət sahəsində aparılan beynəlxalq və yerli siyasət və strategiyalar haqqında biliyə malik olacaq və fəaliyyətində tətbiq etməyi bacaracaq. Mədəni irsin qorunmasına dair beynəlxalq konvensiyalar və Azərbaycan qanunvericiliyinə dair biliklərə malik olacaq. Mədəni irs obyektlərinin konservasiyası, rəqəmsallaşdırılması və çağdaş dövrə adaptasiyasına dair yanaşmaları biləcək, mədəni irsin yenidən kontekstual interpretasiyasını bacaracaq. |
| PTN 7. Kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına əsaslanaraq tədqiqat aparmağı bacaracaq. Kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edərək, verilənləri araşdırmağı və təhlil etməyi bacaracaq. |

| |
|---|
